*Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana verdiyi siyasi-mənəvi dəstək xalqımız tərəfindən ən yüksək qiymətə layiq görüldü. Türkiyə dövləti, xalqı bütün dünyaya Azərbaycan ilə həmrəy olduqlarını nümayiş etdirdilər, İkinci Qarabağ müharibəsinin hər anını qardaş ölkə Azərbaycanla birgə yaşadı. Qarabağ müharibəsində əldə edilən şanlı Zəfər isə yalnız Azərbaycanın deyil, eləcə də Türkiyə və bütün türk dünyasının tarixi Qələbəsi kimi qiymətləndirildi. Bu tarixi Qələbədən sonra Türkiyə ilə Azərbaycan arasında imzalanan Şuşa Bəyannaməsi iki ölkə arasındakı birliyin daha da yüksək səviyyələrə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb etdi.*



# Türkiyə hər zaman Azərbaycanın yanındadır

Bu müttəfiqlik bəyannaməsi Azərbaycanın müstəqilliyi dövründə iki qardaş ölkə arasında imzalanan hərbi təhlükəsizlik məsələlərini, onun müxtəlif parametrlərini göstərən ilk rəsmi sənəd oldu. Məhz bu baxımdan, Şuşa Bəyannaməsi tarixi önəm daşıyaraq, regionda yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcını qoydu. Hazırda dövlətimiz tərəfindən Qarabağda aparılan bərpa-yenidənqurma işlərində də Türkiyə yaxından iştirak edir, hər zaman olduğu kimi, Azərbaycanla həmrəyliyini nümayiş etdirir. Türkiyə ilə Azərbaycanın apardığı siyasət bölgədə sabitlik və sülhün bərqərar olmasına, xalqların birgə və rahat yaşamasına xidmət edir.

Müharibədən sonra Türkiyə və Azərbaycan arasında münasibətlərin yeni mərhələsi başlayıb. Prezident Ərdoğan işğaldan azad edilmiş ərazilərə, Şuşaya səfərlər edib. Daha bir mühüm məqam Prezident Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakı oldu. Məhz Türkiyə liderinin təyyarəsi xarici dövlət başçıları arasında ilk olaraq Füzuli aeroportuna endi. Bunun da çox böyük rəmzi mənası vardır. Rize-Artvin Hava Limanının açılışına məhz Azərbaycan liderinin gəlməsi bu rəmziliyin, sarsılmaz münasibətin, qardaşlığın davamı oldu.

Təkcə iki ölkə və iki xalq arasında deyil, iki ölkənin liderləri arasında da bütün dünyaya nümunə olacaq qardaşlıq və dostluq münasibətləri mövcuddur. "Bu gün də biz bir yerdəyik, Qarabağın bərpası işində bərabər, çiyin-çiyinə çalışırıq. Bir çox Türkiyə şirkətləri, o cümlədən xarüqə adlandırılan bu gözəl hava limanını inşa edən şirkət də Qarabağda bərpa işləri ilə məşğuldur. Bizim minlərlə türk qardaşımız bu gün Azərbaycanda Qarabağın bərpası ilə bağlı öz işini görür, öz sözünü deyir". Bu fikirləri Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev bildirib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada keçirilən konfransda qeyd edib ki, Cənubi Qafqazda başlanan yeni dövrdə Ankara bu tarixi imkanın əldən verilməməsi üzərində işləyir. Bu günə qədər Azərbaycanla bir çox birgə addımlar atılıb. Ermənı radikal dairələrinin sabotajına baxmayaraq, Qafqazda daimi sülhə doğru mühüm yol keçilib. Ermənistanla xüsusi nümayəndələr səviyyəsində başladılan görüşlər davam edir. Ərdoğan əlavə edib ki, Ermənistan tərəfindən proseslərin düzgün təhlili, Azərbaycan və Türkiyənin səmimi çağırışlarına verilən cavablar nəticəsində regionda tezliklə sabitlik bərqərar olunacaq. Onu da qeyd etmək lazımdır ki, dünyanın aparıcı qurumları postmüharibə reallıqlarını artıq qəbul ediblər və öz fəaliyyətini bu reallıqlar əsasında qururlar. Ermənistan da bu reallığı qəbul etməlidir. Lakin təəssüf ki, Ermənistanda revanşist qüvvələrin baş qaldırdığının, növbəti terror və təxribatının şahidi olduq. Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törətmiş, bir əsgərimiz şəhid olmuşdur. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürülmüşdür. Bu təxribatla Ermənistan aydın nümayiş etdirdi ki, o, münaqişənin dinc vasitələrlə tənzimlənməsində maraqlı deyil, əksinə, işğalçılıq siyasətini davam etdirməkdə israrlıdır. Azərbaycan tərəfi münaqişənin dinc yollarla aradan qaldırılması üçün səylər göstərməklə yanaşı, bəyan edir ki, nəticəsiz danışıqları sonsuza qədər davam etdirməyəcək.

Xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunun dəvəti əsasında Ankarada keçirilən "2023-cü il ərəfəsində və ondan sonrakı dövrdə müdrik və humanist Türk diplomatiyası" mövzusunda XIII Səfirlər konfransında Azərbaycan ərazilərinin 30 ilə yaxın dövrdə Ermənistan tərəfindən işğalı zamanı həyata keçirilmiş vandallıqları diqqətə çatdırıb. Azərbaycan xarici işlər nazirinin dünyanın 144 ölkəsində təmsil olunan diplomatik missiya rəhbərlərinin, Türkiyə səfirlərinin konfransında çıxışı əlaqələrin ən yüksək səviyyəsinin göstəricisidir. Nazir 44 günlük Vətən müharibəsindən sonra postmünaqişə mərhələsində bölgədə sülhün bərqərar olması, nəqliyyat-kommunikasiya xətlərinin açılması, Zəngəzur dəhlizinin bərpası istiqamətində Azərbaycan tərəfindən atılan addımlardan, bərpa və quruculuq işlərindən bəhs edib. Ermənistanın üçtərəfli bəyanatlara zidd fəaliyyətləri və bölgədə son təxribatlar barədə konfrans iştirakçılarını məlumatlandırıb. Nazir Türkiyənin hər zaman Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini müdafiə etməsini, xüsusilə də, Vətən müharibəsi zamanı və ondan sonrakı dövrdə bütün səviyyələrdə Azərbaycana verdiyi siyasi dəstəyini, Türkiyənin daim haqqın yanında olmasını xüsusilə qeyd edib.

"Ermənistanın üçtərəfli Bəyanatın şərtlərini dərhal yerinə yetirməsi çox vacibdir"- bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Rusiyadan səfərdən qayıtdıqdan sonra mətbuata açıqlamasında deyib: "İlk növbədə, azərbaycanlı hərbçinin şəhid olmasına səbəb olan hücumu pisləyirik. Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində yerləşən Azərbaycan torpağıdır. Təbii ki, Azərbaycan öz torpaqlarına heç bir qanunsuz silahlı ünsürlərin olmasını istəmir. Üçtərəfli Bəyanatın qəbulundan təxminən iki il vaxt keçib. Ermənistanın buradakı şərtləri dərhal yerinə yetirməsi çox vacibdir", - deyə Ərdoğan vurğulayıb. "Can Azərbaycanın Zəfərinin yaratdığı münbit şəraitdən davamlı sülh üçün istifadə edirik. Xüsusi nümayəndələrimiz Ermənistanla danışıqları davam etdirirlər. Son günlər bölgədə baş verən gərginlik mövcud sakitliyin nə qədər kövrək olduğunu göstərdi. Dost da, düşmən də bilsin ki, Can Azərbaycan heç zaman yalnız deyil". Bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankarada "Müdrik və mərhəmətli türk diplomatiyası" mövzusunda keçirilən XIII səfirlər konfransının rəsmi açılışındakı çıxışında ifadə edib. Ermənistanın Azərbaycana qarşı təxribatları nəticəsində başlayıb 44 gün davam edən Vətən müharibəsində Türkiyənin ölkəmizə verdiyi dəstəyi, ölkəsinin haqq və ədalətin yanında olduğunu, qəhrəman Azərbaycan Ordusunun rəşadətli Qələbə qazandığını xatırladan nazir bölgədə baş verən son hadisələrə də münasibət bildirərək deyib: "Biz Ermənistana xəbərdarlıq edirik ki, yeni təxribatlara əl atmasın".

Avqustun 4-də bir neçə şəxs Londonda Azərbaycan səfirliyinə hücum edib. Onlar səfirliyin yerləşdiyi binada Azərbaycan bayrağını çıxarıb yerinə dini şüar yazılmış bayraq taxıblar, divarlara, pəncərələrə ərəb dilində şüar yazıb və səsləndiriblər. Məlum olduğu kimi, hər bir səfirlik mənsub olduğu ölkənin ərazisidir, toxunulmazdır və yerləşdiyi dövlət tərəfindən qorunur. Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin toxunulmazlığı pozulub. Azərbaycan XİN-in rəsmi məlumatında deyilir ki, yerli polisin müdaxiləsindən sonra qrup üzvləri binadan çıxarılıb və saxlanılıb. Hadisə nəticəsində səfirliyin əməkdaşları xəsarət almayıb. Hadisədən dərhal sonra bir sıra dövlətlər və təşkilatlar bu hücuma münasibət bildiriblər. Səfirliyimizə hücum aktını qınayan bəyanatlar veriblər. Hadisənin baş verdiyi gün Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı Ceyhun Bayramovla telefon danışığında hadisədən narahatlığını dilə gətirib. Eləcə də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan avqustun 6-da jurnalistlərə verdiyi açıqlamada hadisəni pisləyərək "qəbuledilməz" adlandırıb. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib ki, "Ceyhun bəylə danışdım, edə biləcəyimiz bir şey varmı, - deyə soruşdum. O, hər şeyin nəzarət altına alındığını, bunu törədən bəzi şəxslərin saxlanıldığını dedi. Biz bu cür təxribatlara boyun əyəcək millət və dövlətlər deyilik. "Bir millət, iki dövlətik", hər zaman Azərbaycanın yanındayıq.

**Mustafa KAMAL,**
**"Respublika".**